UOT 025.5

**Aygün Hacıyeva**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant*
aygun_haciyeva_87@mail.ru

## MOLLA PƏNAH VAQİF: BİBLİOQRAFİK NƏZƏR

**Açar sözlər:** *Azərbaycan ədəbiyyatı, şair, , Milli Kitabxana, biblioqrafik vəsait*
**Ключевые слова:** *Азербайджанская литература, поэт, Национальная библиотека, библиографическое пособие*
**Key words:** *Azerbaijani literature, poet, National Library, bibliographic material*

Molla Pənah Vaqif Azərbaycan xalqının orta əsrlər ənənələri ruhunda və yeni tipli, realist, şifahi xalq poeziyasına yaxın şeirlər yazmış şairlərindəndir. Onun yaradıcılığı Azərbaycan poeziyasının gələcək inkişafına böyük təsir göstərmişdir. Vaqif Şərq poeziyasının bütün klassik formalarından istifadə etmişdir. O, qəzəl, təcnis, müxəmməs, müstəzad, müəşşərə, müşairə, məsnəvi və mərsiyələr yazmışdır. Ancaq onun yaradıcılığının böyük bir qismini aşıq poeziyasından götürülmüş, qoşmalar təşkil edir. Həmin şeirlərin dili xalqın canlı danışığına çox yaxındır. Vaqif ərəb və fars mənşəli sözlərdən bacardıqca az istifadə etmişdir. O, Azərbaycan ədəbiyyatının yeni istiqamətdə inkişafına kömək etmiş qüdrətli bir sənətkar olduğu kimi, həm də siyasi fəaliyyətində xalqla bağlı mütərəqqi şəxsiyyətlərdən biridir.

Ötən il bu görkəmli şəxsin -XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, mütəfəkkir, ictimai-siyasi xadim, şair Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olmuşdur. Şairin adının YUNESKO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi ilə əlaqədar olaraq Azərbaycan prezidenti İlham Əliyev böyük şairin yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncama müvafiq olaraq, YUNESKO təşkilatı və TÜRKSOY tərəfindən cari ili böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi münasibətilə "Molla Pənah Vaqif ili" elan etməsilə əlaqədar il ərzində silsilə tədbirlər keçirilmişdir. İlk belə tədbir Azərbaycan və Türkiyə Respublikalarının Mədəniyyət və Turizm Nazirlikləri, TÜRKSOY təşkilatı, Türk Mədəniyyəti və İrsi Fondu və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə Molla Pənah Vaqif ilinin açılışı münasibətilə mart ayında TÜRKSOY-da və Sakarya Büyükşehir Mədəniyyət Mərkəzində təşkil edilmişdir.

Bütün respublikada olduğu kimi, Azərbaycan Milli Kitabxanası da M.P.Vaqif ilə bağlı bir neçə vəsait hazırlamış, tədbirlər keçirmişdir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Türk Mədəniyyəti və İrsi Fondu və Azərbaycan Milli Kitabxanası tərəfindən Mədəniyyət və Turizm Nazirliyinin nəşr etdiyi akademik Nizami Cəfərovun "Molla Pənah Vaqif" adlı kitabının təqdimatı keçirilmiş, kitab sərgisi açılmışdır. Bu kitabın Astanada "Oxuyan dünyada oxuyan millət" adlı beynəlxalq simpozium çərçivəsində türkdilli dövlətlərin Milli Kitabxana

direktorlarının V beynəlxalq konfransı ərəfəsində Qazaxıstan Akademik Milli Kitabxanasında da təqdimatı keçirilmişdir.

Həmçinin TÜRKSOY-la birgə Azərbaycan Milli Kitabxanası tərəfindən Ankarada çap olunmuş "Dünya dillerinde Molla Penah Vagif şiirleri" adlı türk dilində kitabın da təqdimatı olmuş, geniş sərgi açılmışdır.

Ötən ilin noyabr ayında Türkiyə Milli Kitabxanasında beynəlxalq elmi konfrans və Azərbaycan Milli Kitabxanasının fonduna məxsus olan, şairin əsərlərindən ibarət geniş kitab sərgisi təşkil olunmuşdur. Tədbir çərçivəsində həmçinin "Molla Pənah Vaqif şeirləri dünya dillərində", "N.Cəfərov. Molla Pənah Vaqif", şairin 20-dək dildə çap olunmuş əsərləri haqqında ətraflı məlumat verən "Molla Pənah Vaqif. Biblioqrafiya" kitablarının təqdimatı olmuşdur.

Bundan başqa, Qazax şəhərinin Ədəbiyyat Muzeyində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı, Qazax Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Azərbaycan Milli Kitabxanasının, Azərbaycan Milli Konservatoriyasının və Beynəlxalq Muğam Mərkəzinin "Sirrlər xəzinəsi" birgə layihəsinin böyük Azərbaycan şairi Molla Pənah Vaqifə həsr olunmuş ədəbi-bədii musiqili məclisi, akademik Nizami Cəfərovun "Molla Pənah Vaqif" və Milli Kitabxananın nəşr etdiyi "Molla Pənah Vaqif. Biblioqrafiya" kitablarının və kitab sərgisinin təqdimatı keçirilmişdir.

Dekabr ayında Azərbaycan Milli Kitabxanasında M.P.Vaqifin 300 illik yubileyi ilə əlaqədar TÜRKSOY tərəfindən keçirilən tədbirlərə yekun vurulmuş və **"M.P.Vaqif medalı"** ilə təltiflər olmuşdur.

Azərbaycan Milli Kitabxanası "Molla Pənah Vaqif-300: metodik tövsiyələr" adlı vəsait çap etmişdir ki, bu metodik vəsaitdə Molla Pənah Vaqifin həyat və yaradıcılığı haqqında qısa məlumat, həmçinin, şairin 300 illik yubileyi çərçivəsində kitabxanalarda keçiriləcək tədbirlər haqqında tövsiyələr verilmişdir.

Azərbaycan Milli Kitabxanasının nəşri olan "Əlamətdar və tarixi günlər təqvimi-2017" adlı vəsaitin ötən ilki nəşri də məhz şairin 300 illik yubileyinə həsr olunmuşdur. Təqvimdə M.P.Vaqifin həyat və fəaliyyətinə dair zəngin məlumatlar öz əksini tapmışdır. Burada M.P.Vaqifin həyat və yaradıcılığı haqqında ayrıca məqalə, Molla Pənah Vaqifin *latın qrafikası ilə çap olunan* əsərləri *barədə məlumat verilmişdir.*

Azərbaycan Milli Kitabxanası binasının fasadında yerləşən heykəllərdən biri Molla Pənah Vaqifə məxsusdur. Hələ 1967-ci ildə anadan olmasının 250 illik yubileyi münasibətilə AzSSR Mədəniyyət Nazirliyi, M.F.Axundov adına Azərbaycan Respublika Kitabxanası tərəfindən (Tərt.ed. F.A.Bayramov, N.İ.Əlizadə; red. S.M.Rzayev) "Molla Pənah Vaqif" adlı ədəbiyyat göstəricisi hazırlamışdır. 1970-ci ildə yenidən (tərt.ed. M.Y.Nəcəfova; red. H.A.Zeynalova) "Molla Pənah Vaqif" adlı qısa tövsiyə ədəbiyyat göstəricisi tərtib edilmişdir.

Bundan əlavə, "Molla Pənah Vaqif-300" adlı elektron məlumat bazası hazırlanmış və kitabxananın saytında istifadəçilərə təqdim edilmişdir.

"Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasında "Molla Pənah Vaqif. Biblioqrafiya" adlı vəsait tərtib edilmiş, göstəricidə Molla Pənah Vaqifin əsərləri, həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında zəngin məlumat toplanmışdır. Vəsaitdə şairin həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun

haqqında fikirləri də öz əksini tapmışdır. "Molla Pənah Vaqif" adlı biblioqrafik göstərici şairin ədəbi və ictimai fəaliyyətini əks etdirən 1856-2017-ci illərdə dərc olunan materialları əhatə edir. Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur və 2278 adda mənbəni əks etdirir.




Kitabın tərtibçiləri Mədinə Vəliyeva, Mətanət İbrahimova və Gülbahar Misirova, elmi redaktoru professor Kərim Tahirov, redaktoru isə Əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyevadır.

Vəsaitdə ilk olaraq "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı verilmişdir. Daha sonra "Tərtibçidən" və akademik Nizami Cəfərovun şair haqqında yazdığı "Xalqın böyük şairi" adlı geniş giriş məqaləsi əks olunmuşdur. Molla Pənah Vaqifin həyat və fəaliyyətinin əsas tarixləri və şair haqqında görkəmli şəxsiyyətlərin fikirləri verilmişdir.

Biblioqrafik vəsaitin tərtibi zamanı nəinki respublikanın ən böyük və zəngin kitabxanası olan Azərbaycan Milli Kitabxanasının, həmçinin digər böyük kitabxanaların fondlarında da axtarışlar aparılmış, tərtib işinin hərtərəfli olması üçün çalışılmışdır. Toplanmış materiallar bu cür qruplaşdırılmışdır. Əvvəlcə şairin əsərləri, yəni kitabları, kitablarda, dövri mətbuatda və məcmuələrdə dərc olunmuş əsərləri verilmişdir. Sonra Molla Pənah Vaqifin şeirlərinə bəstələnmiş mahnılar, şairin həyat və yaradıcılığı haqqında kitablar, dissertasiyalar və avtoreferatlar, dövri mətbuatda və məcmuələrdə dərc olunmuş məqalələr əks olunmuşdur.

"Molla Pənah Vaqif bədii ədəbiyyatda və incəsənətdə" adlı bölmədə olan yenə kitablar, dövri mətbuatda və məcmuələrdə çap olunmuş məqalələr, həmçinin elektron resurslar, rus dilində əsərləri, kitablar və dövri mətbuatda və məcmuələrdə çap olunmuş məqalələr verilmişdir. Rus dilində "Haqqında" adlı bölmədə kitablar, dissertasiya və avtoreferatlar və dövri mətbuatda və məcmuələrdə çap olunmuş məqalələr verilmişdir.

Bundan əlavə, 17 dildə (alman, başqırd, fars, fransız, ərəb, eston, ingilis, italyan, qazax, qırğız, özbək, polyak, tat, tatar, türk, türkmən, ukrayna) həyat və yaradıcılığı haqqında əsərlər öz əksini tapmışıdır.

400 səhifəlik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə 2 dildə (Azərbaycan və rus) yardımçı aparat tərtib edilmişdir. Bunlar şairin kitablarının, əsərləri çap olunmuş məcmuələrin, əsərlərinin, şeirlərinə bəstələnmiş mahnıların və onların müəlliflərinin əlifba göstəricisidir.

Həmçinin rus dilində əsərlərinin, kitabların, haqqında dövri mətbuatda və məcmuələrdə çap olunmuş məqalələrin, şair haqqında yazmış müəlliflərin və şairin başqa dillərdə çap olunmuş əsərlərinin əlifba göstəriciləri hazırlanmışdır.

Molla Pənah Vaqif haqqında yazan müəlliflərin əlifba göstəricisindən müəyyən etmək olur ki, şair haqqında Azərbaycan dilində yazmış müəlliflərdən ən çox çap olunanları H.Araslı (78 dəfə), S.Vurğun (45 dəfə), Vidadi (40 dəfə), N.Cəfərov (28 dəfə), A.Dadaşzadə (25 dəfə), Y.V.Çəmənzəminli (16 dəfə), rus dilində yazmış müəlliflərdən isə V.Luqovskiy və M.Petrovıx (20 dəfə), T.Spendiarova (18 dəfə), S.Vurğun (17 dəfə), A.Dadaşzadə və L.Dliqaç (16 dəfə), Ə.Şərif (12 dəfə), N.Çukovskiy və M.Zamaxovskaya (10 dəfə) oluşdur.

Şairin kitablarının əlifba göstəricisindən Azərbaycan dilində ən çox "Əsərləri" (12 dəfə) və "Seçilmiş əsərləri" (4 dəfə), rus dilində isə "Lirika"sının (3 dəfə) çap olunduğunu görürük.

Azərbaycan biblioqrafiya elminə yeni bir töhfə olan bu vəsait böyük şairin yaradıcılığı ilə maraqlanan tədqiqatçılar üçün mühüm məxəz rolunu oynayır.

**Ədəbiyyat:**


1. Molla Pənah Vaqif: biblioqrafiya / tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, G.Misirova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2017.- 440 s.
2. Molla Pənah Vaqif – 300 / tərt. ed.: S.Quliyeva, L.Əhmədova; ixtisas red. və bur.məs. K.Tahirov; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası.- Bakı, 2017.- 32 s.
3. https://az.wikipedia.org/wiki/Molla_Pənah_Vaqif
4. http://www.xalqqazeti.com/az/news/culture/94121


***Айгюн Гаджиева***

**МОЛЛА ПАНАХ ВАГИФ: БИБЛИОГРАФИЧЕСКИЙ ОБЗОР**
**Резюме**

В статье освещаются события, посвященные 300-летию одного из видных представителей азербайджанской литературы XVIII века, великого мыслителя, общественного и политического деятеля, поэта Молла Панаха Вагифа.

***Aygun Qadjiyeva***

**MOLLA PANAH VAGİF: BIBLIOGRAPHICAL REVIEW**
**Summary**

The article highlights events, held on the occasion of the 300th anniversary of one of the prominent figures of the 18th century Azerbaijani literature, a great thinker, public and political figure, poet Molla Panah Vagif.